*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 27 mart 2019-cu il | № 23 (2340) | Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Biz ordu quruculuğu üçün nə lazımsa onu da edəcəyik

*Martın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə xalqımızı təbrik edib. Ölkə Prezidenti respublikamızın iqtisadi inkişafından, xalqın rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizindən, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsindən, TANAP qaz kəmərinin açılışından, üçüncü peykin orbitə buraxılmasından, kosmik sənayenin inkişafından, irimiqyaslı sosial layihələrdən və s. danışaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinə də toxunub:*



- Keçən ilin yay aylarında Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədi paraflandı. Bu, çox önəmli sənəddir. Xüsusilə nəzərə alsaq ki, orada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı ilə bağlı xüsusi paraqraflar var, xüsusi fikirlər əks olunub. Bu, əlbəttə ki, çox önəmli məsələdir, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bunun çox böyük əhəmiyyəti var.

Münaqişənin həllinə gəldikdə, Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ bizim tarixi diyarımızdır və münaqişənin tezliklə həlli yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında olmalıdır. Bilirsiniz ki, Ermənistan tərəfi danışıqlar formatının dəyişdirilməsi ilə bağlı məsələlər qaldırıb. Ancaq təbii ki, Azərbaycan bunu qəbul edə bilməz. Eyni zamanda Minsk qrupunun həmsədr ölkələrinin səfirləri - Amerika, Fransa, Rusiyanın nümayəndələri ciddi bəyanat verərək bildirdilər ki, format dəyişməz olaraq qalmalıdır. Həmçinin Avropa İttifaqının yüksək vəzifəli şəxsləri oxşar bəyanatla çıxış etmişlər. Yəni, bu, Ermənistana birmənalı ciddi siqnaldır, eyni zamanda onu göstərir ki, Azərbaycanın mövqeyi daha da böyük dəstək qazanır.

Münaqişənin həlli regionda sülhün, sabitliyin təmin olunmasına gətirib çıxaracaq. Əlbəttə, Azərbaycan çalışır və çalışacaq ki, bu məsələ tezliklə ancaq beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapsın.

Biz bununla bərabər, əlbəttə ki, öz hərbi gücümüzü artırırıq. Ötən il keçirilmiş iki hərbi parad bizim hərbi gücümüzü bütün dünyaya nümayiş etdirib. Bu il və bundan sonrakı illərdə biz ordu quruculuğu üçün nə lazımsa onu da edəcəyik. Bizim hərbi hissələrimizin demək olar ki, mütləq əksəriyyəti yenidən qurulub. Azərbaycan Ordusu ən müasir texnika ilə təchiz edilir və döyüş qabiliyyətimiz gündən-günə artır. Bu gün Novruz bayramını, o cümlədən Cocuq Mərcanlıda qeyd edirlər. Cocuq Mərcanlının qurulması, bərpası, yenidən oraya həyatın qayıtması bizim tarixi nailiyyətimizdir. Cocuq Mərcanlı bu gün Azərbaycan xalqının əyilməz ruhunun təzahürüdür.

## Azərbaycan Müdafiə nazirinin ABŞ-a işgüzar səfəri başlayıb

*Martın 25-dən Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə nazirliyin nümayəndə heyəti Amerika Birləşmiş Ştatlarında işgüzar səfərdədir.*

Səfər çərçivəsində Müdafiə naziri Birləşmiş Millətlər Təşkilatının Sülhməramlı Əməliyyatlarını yerinə yetirən ölkələrin Müdafiə nazirlərinin Nyu-York şəhərində keçirilən toplantısında iştirak edəcək.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun BMT Baş Katibinin müavini - BMT-də Sülhməramlı Əməliyyatlar Departamentinin rəhbəri cənab Jan Pyer Lakrua və toplantıda iştirak edən digər ölkələrdən olan həmkarları ilə görüşləri nəzərdə tutulub.

Görüşlərdə regional təhlükəsizlik, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsi, eləcə də ölkəmizin BMT-nin sülhməramlı əməliyyatlarda iştirakının perspektivləri müzakirə olunacaq.

## Azərbaycan və Xorvatiya arasında müdafiə sahəsində əməkdaşlıq müzakirə edilib

*Azərbaycanın Xorvatiyadakı səfiri Fəxrəddin Qurbanov bu ölkənin Baş nazirinin müavini və Müdafiə naziri Damir Krstiçeviç ilə görüşüb.*

AZƏRTAC xəbər verir ki, görüşdə Xorvatiya ilə Azərbaycan arasında dostluq əlaqələrindən, tərəfdaşlıq münasibətlərinin inkişafından danışılıb.

Qeyd olunub ki, müdafiə sahəsində əməkdaşlıq intensivlik baxımından o qədər də nəzərəçarpacaq olmasa da, əsasən hərbi-texniki əməkdaşlıq sahəsində əməkdaşlığı gücləndirmək üçün qarşılıqlı maraq mövcuddur.

Nazir D.Krstiçeviç aprelin 10-12-də Xorvatiyanın Split şəhərində keçiriləcək Silah və Silahlar üzrə Adriatik Ordu Sərgisinə (ASDA 2019) Azərbaycan tərəfini də dəvət edib.

Tərəflər Cənubi-Şərqi Avropada və Cənubi Qafqazdakı təhlükəsizlik vəziyyətinə dair fikir mübadiləsi aparıblar.

# Azərbaycan Respublikası Müdafiə nazirinin Pakistana rəsmi səfəri

Ötən əsrin 90-cı illərində Sovet İttifaqının tənəzzülü və tarix səhnəsindən silinməsi nəticəsində Avrasiyanın geosiyasi konfiqurasiyasında yeni müstəqil dövlətlər meydana gəldi. Dövrün reallıqlarına, həmçinin öz dövlət maraqlarına uyğun olaraq bu geosiyasi dövlətlər beynəlxalq münasibətlər sistemində mövqelərini möhkəmləndirmək, dinamik inkişaflarını təmin etmək üçün qlobal dünya siyasətində fəal rol oynamağa çalışdılar. Siyasi arenaya uğurla qədəm qoyan belə dövlətlərdən biri də Azərbaycan Respublikasıdır. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan həm Qərbdə, həm də Şərqdə beynəlxalq hüququn bütün subyektləri ilə bərabərhüquqlu əməkdaşlıqda maraqlı oldu, böyük güc mərkəzləri ilə inteqrasiya proseslərinə xüsusi diqqət yetirdi. Eyni zamanda Azərbaycan Respublikasının beynəlxalq əlaqələrində şərq ölkələri ilə tərəfdaşlıq məsələləri daim mühüm əhəmiyyət kəsb etməyə başladı, xarici siyasət kursunun prioritet istiqamətlərindən sayıldı. Təsadüfi deyil ki, ölkəmizin üzv olduğu ilk beynəlxalq təsisat da Asiya ölkələrinin təşkilatı olan İslam Konfransı Təşkilatı oldu.





Bu baxımdan Azərbaycan şərqin aparıcı dövlətlərindən olan və dünya siyasətində böyük nüfuza malik Pakistan ilə əlaqələrinə xüsusi önəm verdi, geosiyasi və geoiqtisadi sahələrdə onunla əməkdaşlığı dövlət mənafeyi üçün zəruri hesab etdi. Pakistan Respublikası Azərbaycanın müstəqilliyini tanıyan (1991) ilk ölkələrdən biri olub. Ölkələrimiz arasında diplomatik münasibətlər 1992-ci ildə qurulub.

Artıq bu gün beynəlxalq arenada Azərbaycan-Pakistan münasibətləri strateji müttəfiqlik səviyyəsindədir. Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində Pakistan daim Azərbaycanı müdafiə edib, birmənalı şəkildə ölkəmizin mənafeyinə uyğun siyasət yürüdüb. Mütəmadi qaydada hər iki ölkə arasında yüksək səviyyəli siyasi əlaqələr həyata keçirilir. Belə siyasi münasibətlərin başlanğıcı 1995-ci ilin oktyabrında Pakistan İslam Respublikasının Prezidenti Sərdar Faraq Əhməd Xan Leqarinin Azərbaycana rəsmi səfəri ilə qoyulub. Bunun ardınca ümummilli lider Heydər Əliyevin prezident kimi 1996-cı ilin aprel ayında Pakistana səfəri zamanı iqtisadi, siyasi, mədəni sahələrdə əməkdaşlığa dair mühüm müqavilələrin imzalanması iki ölkə arasındakı əlaqələri daha da möhkəmləndirib. Eyni zamanda 2000-ci illərin ortalarından başlayaraq ölkə başçıları səviyyəsində növbəti görüşlərin reallaşması da münasibətlərin inkişafına təsir edən amillərdən olmuşdur.

Bu mənada 2004-cü ilin iyulunda Pakistan Prezidenti Pərviz Müşərrəfin Azərbaycana rəsmi səfəri və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşü xüsusi qeyd edilməlidir. Həmin görüşdə Pakistan Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini dəstəkləməklə yanaşı, iki ölkə arasında qarşılıqlı münasibətlərin inkişaf istiqamətləri barədə danışıqlar aparıldı, dövlət əhəmiyyətli bir sıra sənədlər, hökumətlərarası sazişlər imzalandı, yekun olaraq Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında Birgə Bəyannamə qəbul edildi.

Bu gün Azərbaycanın Pakistanla əməkdaşlığında hərbi-siyasi faktor da mühüm rol oynayır. Bu cəhətdən Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında 2002-ci ildə imzalanmış Müdafiə və Hərbi sahədə əməkdaşlıq haqqında sazişdə hər iki ölkənin hərbi-siyasi sahədə tərəfdaşlığının prioritet istiqamətləri əks olunub. Bu müqavilə ilə dövlətlərimiz arasında hərbi əlaqələr daha da genişlənib, ikitərəfli hərbi əməkdaşlıq əlaqələrinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb. Eyni zamanda Azərbaycan və Pakistan arasında ikitərəfli hərbi əməkdaşlıq protokolu da imzalanıb. Ermənistanla müharibə vəziyyətində olan Azərbaycan üçün bu hərbi əlaqələrin zəruri əhəmiyyətə malik olmasını qeyd etməyə ehtiyac yoxdur. Pakistanla hərbi tərəfdaşlığımız ordumuzun döyüş qabiliyyətinin yüksəldilməsinə önəmli təsir edib, həmçinin zabit kadrlarımız qardaş ölkənin ali hərbi məktəblərində təhsil alaraq daha da təkmilləşmək imkanı qazanıblar.

Nəticədə geosiyasi müstəvidə Azərbaycan özünə nüfuzlu müttəfiq əldə edib, bu isə beynəlxalq aləmdə dövlətimizin mövqelərinin daha da güclənməsinə şərait yaradıb. 2016-cı ildə Ermənistanla aprel döyüşləri zamanı məsələyə münasibət bildirən Pakistan Prezidentinin katibi Əhməd Fərrux demişdi ki, "Pakistan həmişə Azərbaycanın yanındadır" və "Azərbaycana qardaş və dost ölkədir". Beynəlxalq səviyyəli bir sıra tədbirlərdə Pakistan daim Azərbaycanı Dağlıq Qarabağ məsələsində müdafiə edib, ölkəmizə qarşı erməni təcavüzünü qətiyyətlə pisləyib. Eyni zamanda Pakistan dünyada yeganə dövlətlərdən biridir ki, Ermənistanla diplomatik əlaqələr qurmayıb, onu ümumiyyətlə dövlət kimi tanımayıb. Nəticə etibarilə deyə bilərik ki, Azərbaycan-Pakistan strateji tərəfdaşlığı bu gün də uğurla inkişaf etməkdədir.

Bu mənada Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyətinin martın 21-də Pakistan İslam Respublikasına rəsmi səfəri də diqqət çəkir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfər çərçivəsində Pakistanın dövlət rəhbərliyi, hərbi və digər strukturlarının rəsmiləri ilə keçirilən görüşlərdə hərbi, hərbi-texniki, hərbi təhsil və bir sıra digər sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələlərinin müzakirəsi aparılıb.

İlk olaraq Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Pakistan İslam Respublikasının Müdafiə naziri cənab Pervez Xattaq arasında görüş keçirilib.

Cənab P.Xattaq ölkələrimizin coğrafi baxımdan bir-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, xalqlarımız arasında tarixən dostluq münasibətlərinin olduğunu bildirib. Müxtəlif sahələrdə münasibətlərin genişlənərək xeyli gücləndiyini qeyd edən pakistanlı nazir iki ölkənin hərbi sahədə əməkdaşlığının böyük potensialının olduğunu qeyd edib.

Səmimi qəbula görə minnətdarlığını bildirən general-polkovnik Zakir Həsənov vurğulayıb ki, Azərbaycan ilə Pakistan arasında dostluq münasibətləri dərin köklərə malikdir. Regiondakı hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verib, hər iki ölkənin beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini qeyd edərək bunun xalqlarımızın iradəsindən qaynaqlanan tərəfdaşlıq münasibətlərinin göstəricisi olduğunu vurğulayıb.

Pakistan İslam Respublikasında səfərdə olan Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndə heyətini martın 22-də bu ölkənin Prezidenti cənab Arif Alvi qəbul edib.

Qəbula görə təşəkkür edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikası Prezidentinin xoş salamlarını cənab Arif Alviyə çatdırıb. Ölkəmizin Pakistanla əlaqələrə, xüsusilə hərbi sahədə əməkdaşlığa önəm verdiyini qeyd edən Müdafiə naziri təhlükəsizlik, hərbi-texniki, hərbi təhsil və bir sıra digər istiqamətlərdə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb.

Pakistan Prezidenti Arif Alvi öz növbəsində salamlarını və dərin ehtiramını Azərbaycan Respublikasının Prezidentinə çatdırılmasını xahiş edib. Pakistan Prezidenti dövlətlərarası əlaqələrin, həmçinin iki xalq arasında mövcud olan qardaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunu qeyd edərək hərbi-texniki, müdafiə və digər əlaqələrin daha da inkişafının zəruriliyini bildirib.



Prezident A.Alvi Pakistanın Dağlıq Qarabağ münaqişəsində ölkəmizi dəstəkləməsindən şad olduğunu və bunun davam edəcəyini, Azərbaycan torpaqlarını işğal etdiyi üçün Pakistanın Ermənistanı bir dövlət kimi tanımadığını və məsələnin tezliklə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının zəruriliyini vurğulayıb.

Görüşdə tərəflər maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

Martın 22-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Pakistanın Birləşmiş Qərargah rəisləri Komitəsinin sədri general Zübair Mahmud Həyat və bu ölkənin Quru Qoşunları komandanı general Qamar Caved Bacva ilə də görüşüb.

Görüşlərdə Azərbaycan ilə Pakistan arasında əlaqələrin həm ikitərəfli, həm də çoxtərəfli formatda yüksələn xətlə inkişaf etməsindən, xüsusilə hərbi sahədə əməkdaşlığın genişləndirilməsindən, eləcə də strateji tərəfdaşlığın səviyyəsindən məmnunluq ifadə edilib. Eyni zamanda Azərbaycan ilə Pakistan arasında təhlükəsizlik, müdafiə, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində, eləcə də terrorizmə qarşı mübarizədə əməkdaşlığın daha da inkişaf etdirilməsi, döyüş hazırlığı, ekspert qrupları səviyyəsində qarşılıqlı səfərlərin təşkili, iki ölkə ordularının bütün qoşun növləri arasında əlaqələrin genişləndirilməsi, habelə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Pakistan İslam Respublikasında rəsmi səfərdə olan Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyətinin martın 23-də Pakistanın "Milli Günü"nə həsr olunmuş hərbi paradı izləməsi bir daha sübut etdi ki, iki dövlət arasındakı münasibət ən yüksək səviyyədədir, eyni zamanda Azərbaycan və Pakistan strateji tərəfdaş ölkələrdir.

Paradda fəxri qonaq qismində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun iştirak etməsi və bir çox dövlətlərin silahlı qüvvələrinin nümayəndələrinin qatıldığı hərbi paradda ölkəmizi Azərbaycan Ordusunun parad heyətinin təmsil etməsi xüsusilə qürurvericidir.

Bu onu göstərir ki, bu gün Pakistan və Azərbaycan bir yerdədir və bizim sarsılmaz dostluğumuz, qardaşlığımız əbədidir. İnanırıq ki, Pakistan-Azərbaycan münasibətlərinin mövcud səviyyəsini bundan gözəl, bundan dəqiq ifadə etmək mümkün deyil. Bu, iki dost və müsəlman dövlətlər arasındakı münasibətlərə verilmiş ən dəqiq və ən dəyərli qiymətdir.

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyinin rəhbərliyi Novruz bayramı münasibətilə hərbi hospitalda olub





*Martın 20-də Müdafiə Nazirliyinin rəhbər heyəti Novruz bayramı münasibətilə Silahlı Qüvvələrin Baş Klinik Hospitalında olub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub və xatirəsinə ehtiram ifadə edilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov hospitalda müalicə alan şəxsi heyətlə görüşərək onların səhhəti ilə maraqlanıb. Bayram münasibəti ilə hərbi qulluqçuları təbrik edən Müdafiə naziri onlara sovqatları təqdim edib və tezliklə sağalaraq xidmət yerlərinə qayıtmalarını arzulayıb.

Tibb heyəti ilə görüşən Müdafiə naziri hospitalın kollektivini bayram münasibətilə təbrik edib, uğurlar diləyib və müvafiq tapşırıqlar verib.

Görüşün sonunda Müdafiə nazirinin əmri ilə hospitalın rəisi tibb xidməti polkovniki Tofiq Tağıyev "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal ilə təltif edilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**24 mart 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Mərzili, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**25 mart 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Novruzlu, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**26 mart 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Ayqeovit kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Quşçu Ayrım, Bala Cəfərli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Döyüş hazırlığı*

# Topçularımız nəzəri-təcrübi biliklərini daim artırırlar

*Bu gün ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyəyə çatdırılaraq, peşəkarlığın artırılması məqsədilə bütün qoşun xidmətlərində dünyanın ən müasir texnologiyaları tətbiq edilir. Silahlanmada xüsusi çəki nümayiş etdirən artilleriya qurğularının döyüşdə idarəetmə mexanizminin təkmilləşdirilməsi məqsədilə təyinatı üzrə hərbi hissələrimizdə quraşdırılan kompüterli artilleriya sinifləri də dediklərimizin təsdiqidir.*



Cəbhə xəttində yerləşən "N" hərbi hissəsinin inzibati və xidməti otaqları ilə tanış olarkən kompüterli artilleriya sinfində təlim çalışmasını izlədik. Əvvəlcə hərbi hissələrimizdə belə müasir texniki avadanlıqların tətbiqi sistemində sinif otaqlarının yaranmasının zəruri tərəflərini öyrəndik. Məlum oldu ki, artilleriyaçılarımız çöl təlim çalışmalarının bir çox mövzularını həm nəzəri, həm də praktiki cəhətdən sinif otaqlarında mənimsəməklə peşəkarlıqlarını və döyüş bacarıqlarını artırırlar. Burada döyüş gücünün, mümkün itkilərin hesablanması qaydaları öyrədilir. Texniki vəsaitin gücündən səmərəli istifadə edərək müdafiənin növündən asılı olaraq birinci eşelon, birləşmə və hissələrdə itki əmsalları hesablanır. Taktiki və əməliyyat normativləri yerinə yetirilir. Komanda müşahidə məntəqələri, onlara yönələn tələblər istiqamətində güc və vasitələrin bölüşdürülməsi, işıqlandırma təminatı üzrə artilleriyanın imkanları geniş məzmunda təlimçilərə çatdırılır. Taktiki və hərbi işarələrin çəkilməsi qaydaları, topoqrafik xəritələrin şərti işarələri nəzəri-praktiki təlimdə yer alan mövzular sırasında dayanır.

Təlim rəhbəri zabit Elşən Hüseynov kompüterli artilleriya sinif otaqlarının topçularımızın atış və atəşin idarə olunması bacarıqlarının artırılmasına və təkmilləşdirilməsinə xidmət etdiyini dedi: "Azərbaycan Ordusunun silahlanmasına daxil olan müasir artilleriya qurğuları dünyanın ən güclü dövlətlərinin silahlı qüvvələrində yer alır. Ötən il ordumuzun və Bakının işğalçılardan azad olunmasının 100 illiyi ilə əlaqədar keçirilən hərbi paradlar da göstərdi ki, Azərbaycan öz hərbi gücü ilə tarixi torpaqlarımızdan erməni işğalçılarını qovub ərazi bütövlüyünü bərpa etmək qüdrətindədir. Peşəkarlığımızı, döyüş qabiliyyətimizi artırmaqda məqsədimiz istənilən zaman Ali Baş Komandanın "İrəli" əmriylə düşmən işğalında olan torpaqlarımızı azad etmək, bir milyondan artıq soydaşımızın öz ata-baba yurduna qayıtmağına zəmin yaratmaqdır."

Təyinatı üzrə mövzularla bağlı bəzi suallarımızı cavablandıran zabit onu da qeyd etdi ki, açıq və qapalı şəraitdə yerləşən düşmənin canlı qüvvəsinə və texnikasına, hərəkətdə olan avtomobil kolonlarına, artilleriya batareyalarına sınaq atışı və ya hazırlıq üsulu ilə tələfat vermə mövzusu üzrə də mütəmadi olaraq sinif dərsləri keçirilir. "Bugünkü çalışma qeyd olunan mövzunun müəyyən istiqamətlərini əhatə edəcək. Çalışmada komandirin qərarı ayrıca yerinə yetirilir. Vaxt normalarına əsasən, atışın dəqiqliyi barədə tapşırıq üç üsula görə qiymətləndirilir: qərar, vaxt, dəqiqlik. Bütün bu kimi mövzular ayrı-ayrılıqda topçularımız tərəfindən yüksək peşəkarlıqla mənimsənilir. Döyüşü artilleriyasız təsəvvür etmək çətindir. Artilleriyanın gücü aprel döyüşlərində də öz sözünü dedi."

Kompüterli artilleriya sinfində topçularımızın təlim çalışması davam edirdi. Yüksək hərbi bilik və bacarıqlara yiyələnən, keçirilən irimiqyaslı təlimlərdə daima peşəkarlıqlarını artıran topçularımızın məqsədi qarşıya qoyulan istənilən döyüş tapşırığını yerinə yetirmək və torpaqlarımızın azadlığı uğrunda "İrəli" əmrinə hər an hazır olmaqdır!

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu",
foto
çavuş
Rəşad ƏMRAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# “Ordunun şəxsi heyətinin ideologiyası dövlətçilik və vətənpərvərlik prinsiplərinə əsaslanır”

*Müdafiə nazirinin müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyevin Ordu.az-a eksklüziv müsahibəsini təqdim edirik:*

**- Cənab general-leytenant, Azərbaycan Ordusunun 11-15 mart tarixlərində keçirilən genişmiqyaslı təlimlərini necə qiymətləndirmək olar?**

- Azərbaycan Ordusunun təlimləri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilib. Daha əvvəl bildirdiyimiz kimi, bu təlimlərdə 10 mindən çox şəxsi heyət, 500 ədəddən çox tank, zirehli nəqliyyat vasitəsi və avtomobil, 300 ədədə qədər raket və müxtəlif təyinatlı, çaplı artilleriya sistemləri, o cümlədən çox sayda lüləli, yaylım atəşli reaktiv sistemlər və minaatanlar, 20 ədədə qədər müxtəlif təyinatlı ordu və cəbhə aviasiya vasitələri, o cümlədən pilotsuz uçuş aparatları iştirak etdi. Təlim tapşırıqlarının yerinə yetirilməsi çərçivəsində şəxsi heyət dəqiq qarşılıqlı əlaqə, bütün idarəetmə orqanlarının fəaliyyətlərinin uyğunluğu, artan ustalıq və yüksək səhra bacarıqları nümayiş etdirdi.

Doğrudur, belə təlimlər ildə bir neçə dəfə, çətin iqlim şəraitində, müxtəlif ərazi relyefində, ilin və günün fərqli zamanlarında müntəzəm olaraq keçirilir.

Beləliklə, biz qarşıdan gələn əməliyyatların və döyüşlərin təşkili və keçirilməsində əvəzsiz təcrübə qazanırıq. Biz işğal olunan ərazilərimizi azad etmək üçün, qarşımıza qoyulan vəzifələri yerinə yetirmək üçün ən optimal və effektiv yolları axtarmağa çalışırıq. Biz bunu gizlətmirik və ordunu bu vəzifələri yerinə yetirmək üçün məqsədyönlü şəkildə hazırlayırıq.

Genişmiqyaslı təlimlərin yekunlarına həsr olunan Müdafiə Nazirliyinin kollegiya iclasında bütün qoşun növlərinin və xüsusi qoşunların təlimlərdə iştirakı təhlil edildi. Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimləri yüksək qiymətləndirdi, şəxsi heyətin əməliyyat, döyüş, mənəvi-psixoloji hazırlığının artırılması və bütün qoşunların fəaliyyətlərinin sonrakı hazırlıq mərhələlərində tapşırıqların mürəkkəbləşdirilməsi üçün səylərin artırılması barədə rəhbər heyət qarşısında konkret vəzifələr qoydu.

**- Təlimlərdə iştirak edən hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyəti və döyüş ruhu barədə nə deyə bilərsiniz?**

- Hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyəti yüksəkdir və daim artmaqdadır. Şəxsi heyətin ideologiyası, əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan dövlətçilik, yüksək əxlaq və vətənpərvərlik prinsiplərinə əsaslanır. Yüksək mənəvi ruh ilk növbədə Ali Baş Komandan tərəfindən Silahlı Qüvvələrə birbaşa rəhbərlik edilməsinin, göstərilən qayğının, diqqətin və şəxsi heyətin xalqına, dövlətinə, öz komandirlərinə və silahlarına olan inancının, sevgisinin nəticəsidir.



*"Ordu inkişafının ümumi islahatları çərçivəsində, şəxsi heyətin tərbiyəsinə xüsusi yer verilir və bütün idarəetmə orqanları tərəfindən ciddi, sistemli və planlı işlər aparılır. Hərbçilər davam edən islahatların nəticələrini hiss edirlər və onların həyata keçirilməsində iştirak edirlər. Ordu rəhbərliyi, Müdafiə Nazirliyi, Baş Qərargah rəisi və digər vəzifəli şəxslərin simasında islahatların aparılmasını dəqiq şəkildə təşkil edir, ciddi şəkildə yerinə yetirir və həyata keçirilməsinə nəzarət edir".*

Ordu inkişafının ümumi islahatları çərçivəsində, şəxsi heyətin tərbiyəsinə xüsusi yer verilir və bütün idarəetmə orqanları tərəfindən ciddi, sistemli və planlı işlər aparılır. Hərbçilər davam edən islahatların nəticələrini hiss edirlər və onların həyata keçirilməsində iştirak edirlər. Ordu rəhbərliyi, Müdafiə Nazirliyi, Baş Qərargah rəisi və digər vəzifəli şəxslərin simasında islahatların aparılmasını dəqiq şəkildə təşkil edir, ciddi şəkildə yerinə yetirir və həyata keçirilməsinə nəzarət edir.

Bu gün dövlət ordu üçün lazım olan hər şeyi edir. Maddi-texniki vəziyyətin möhkəmləndirilməsi ilə yanaşı, hərbi qulluqçulara tətbiq olunan müxtəlif müavinət ödənişləri və imtiyazların sosial paketi genişlənir. Hərbi qulluqçuların, onların ailələrinin, həmçinin şəhid və yaralı ailələrinin yaşayış, tibbi təminat və digər aspektlərdəki problemləri öz həllini tapır. Son 3-4 il ərzində hərbi şəhərciklərin və bazaların 80 faizdən çoxu yenidən qurulub və əsaslı təmir edilib, onlar müasir tələblərə cavab verir. Ordunun bütün infrastrukturunu tam əhatə etmək üçün bu işlər bu günə qədər sürətlə davam edir.

Eyni zamanda ordunun hərbi arsenalı da yenilənir, texnoloji baxımdan inkişaf edən ölkələrdən ən son hərbi texnika və silahlar alınır. Müasir silah və avadanlıqların olması mühüm göstəricidir. Lakin şəxsi heyətin bacarıq, peşəkarlıq və vətənpərvərliyi də az vacib deyil. Bu gün Azərbaycan Ordusunun 70 faizdən çoxu peşəkar hərbçilərdən ibarətdir. Biz diqqətimizi peşəkarlığa yönəltmişik. 2016-cı ilin apreli də, 2018-ci ilin may ayındakı Günnüt əməliyyatı da bizim haqlı olduğumuzu göstərdi.

Qoşunların həyat fəaliyyətlərinin daha yaxşı təmin edilməsi və şəxsi heyətin təsərrüfat işlərinə cəlb edilməməsi məqsədilə mülki işçilərin sayı artırılır.

Yaşayış şəraitinin və tibbi təminatın yaxşılaşdırılması sayəsində biz əvvəllər bəzi narahatlıqlara səbəb olan yoluxucu və digər xəstəliklərin səviyyəsini kəskin şəkildə azaltmışıq. Pediküloz, tuberkulyoz, pnevmoniya və digər xəstəliklər yalnız tək-tək halda baş verə bilər. Bu, dövlətin orduya göstərdiyi diqqət və qayğı sayəsində mümkün olub. Bütün bunların hamısı bütövlükdə, böyük müsbət təsirə malikdir və mənəvi-psixoloji vəziyyətin, o cümlədən döyüş ruhunun yaxşılaşmasına, intizam səviyyəsinin, qanun və qaydanın yüksəlməsinə, hərbi kollektivlərin gücləndirilməsinə daha da kömək edir.

**- Sosial şəbəkələrdə bəzi insanlar tərəfindən müvəffəqiyyətləri aşağı qiymətləndirməyə və guya orduda mövcud olduğu iddia edilən problemləri şişirtməyə, onun rəhbər heyətinə ləkə atmağa cəhd edirlər. Cənab general-leytenant, onlara nə cavab verərdiniz?**

- Hər şeydən əvvəl, qeyd etmək istəyirəm ki, xidmətin spesifik xüsusiyyətlərinə baxmayaraq, ordu ictimaiyyət üçün açıqdır. Biz digər dövlət orqanları, beynəlxalq, humanitar, ictimai, qeyri-hökumət və digər təşkilatlarla yaxından əməkdaşlıq edirik. Müdafiə Nazirliyi ilə müxtəlif təşkilatlar arasında birgə fəaliyyət üçün illik planlar hazırlanır. Açıqlıq nümunəsi müntəzəm olaraq valideynlərin və ailə üzvlərinin iştirakı ilə keçirilən “Açıq qapı” günləridir, burada Müdafiə Nazirliyinin rəhbərliyi, bütün səviyyələrdən olan komandir-rəis heyəti təklif və şikayətləri nəzərdən keçirir və mövcud problemləri həll edirlər. Bu həm arxada, həm də müdafiənin ön xəttində yerləşən hərbi hissələrə eyni dərəcədə şamil olunur.

Mən müsbət inkişafı olan ordu fəaliyyətinin digər aspektlərinə də toxuna bilərdim. Bu gün Azərbaycan Ordusunda heç bir həll edilməyən məsələ yoxdur. Bununla yanaşı, diqqətinizə çatdırmaq istəyirəm ki, bəzi insanlara və ya insanların dairəsinə bizim müvəffəqiyyətlərimiz rahatlıq vermir. Onlar hər yerdə yalnız neqativ görürlər. Onların mahiyyəti budur. Dəfələrlə artırılan itkilər, şişirdilən xəyanət faktları, iddia edilən köhnə hərbi texnika satınalmaları, korrupsiya sxemləri barədə uyğun olmayan və yalnış məlumatlar, ordu rəhbərliyini birbaşa təhqir etmək və s. ölkənin müdafiə və təhlükəsizliyinə görə məsuliyyət daşıyan əsas strukturlardan birinin nüfuzuna xələl gətirmək cəhdindən başqa heç bir şey deyil.

Bu prosesdə iştirak edən, dövlət, xalq və qanun əleyhinə fəaliyyətlərinə görə Azərbaycandan qaçan “ekspertlər”, ucuz bir avtoritet qazanmaq istəyirlər. Xaricdə qrantlar və sədəqələr, o cümlədən erməni lobbisi hesabına yaşayanlar, məqsədyönlü şəkildə orduya və davam edən islahatlara böhtan atırlar. Açıq şəkildə düşmən təbliğatı aparan, əksər hallarda "sensasiyalı məlumatları" Ermənistanın xüsusi xidmət orqanlarının dezinformasiyasından, həmçinin zamanında özünü xalq və ordu qarşısında biabır edən ölkəmizdəki züy tutanlardan əldə edərək, düşmən dəyirmanına su tökürlər.

Mən sosial şəbəkələrdə ordu mövzusu ilə bağlı bütün müzakirələri qərarlı, birmənalı şəkildə qınayıram və bir daha bu şəxsləri bu cür təxribatçı fəaliyyətlərini dayandırmağa çağırıram.

## “Qarabağ Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazisidir”

Almaniya Parlamentində XDİXSİ fraksiyası sədrinin müavini Yohan Vadeful Azərbaycanın Dağlıq Qarabağ regionunu birmənalı olaraq işğal edilmiş ərazi kimi səciyyələndirərək deyib: "Bir məsələ aydındır: Azərbaycan ərazisi Ermənistan tərəfindən qeyri-qanuni işğal edilib".

AZƏRTAC xəbər verir ki, Y.Vadeful bu fikri Xocalı soyqırımının 27-ci ildönümü münasibətilə Almaniya-Azərbaycan forumu, Azərbaycanın AFR-dəki səfirliyi və Almaniya Atlantik Cəmiyyəti tərəfindən Berlində təşkil edilmiş "Cənubi Qafqazda sabitlik və təhlükəsizlik: Almaniya-Azərbaycan tərəfdaşlığının perspektivləri" mövzusunda keçirilən simpoziumda səsləndirib.

Rəsmi Bakının iqtisadiyyatın şaxələndirilməsi təşəbbüsünü yüksək qiymətləndirən Y.Vadeful Azərbaycanı "Cənubi Qafqazda Almaniyanın ən mühüm ticarət tərəfdaşı" adlandırıb.

Siyasətçi deyib: "Biz Azərbaycanı enerji təchizatının şaxələndirilməsi məsələlərində etibarlı tərəfdaş kimi qiymətləndiririk".

## Amerikalı jurnalistlərə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlər çatdırılıb

ABŞ-ın nüfuzlu "The Washington Times" qəzetinin müxbiri Monika Krouli və tanınmış 77WABC radiosunun aparıcısı Con Baçelor Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyevdən müsahibə alıb. Con Baçelor tərəfindən aparılan radio proqramı təkcə ABŞ-da deyil, beynəlxalq aləmdə də geniş auditoriyaya malik siyasi şou proqram kimi tanınır.

AZƏRTAC xəbər verir ki, müsahibə zamanı erməni separatçılarının hələ sovet hakimiyyəti dövründə Azərbaycana qarşı ərazi iddiaları irəli sürdükləri, Sovet İttifaqı dağıldıqdan sonra Ermənistan qoşunlarının Azərbaycanın Dağlıq Qarabağ və ətraf yeddi rayonunu işğal etdikləri, həmin ərazilərdə yaşayan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirdikləri diqqətə çatdırılıb. Bildirilib ki, işğal nəticəsində öz torpaqlarından qovulmuş azərbaycanlı əhali ölkəmizin müxtəlif şəhər, rayon və kəndlərində məcburi köçkün vəziyyətində yaşayır.

Müsahibədə ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin vasitəçiliyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair danışıqlar prosesinin hazırda davam etdirildiyi bildirilib, Azərbaycanın ərazi bütövlüyünün bərpası və məcburi köçkünlərin Dağlıq Qarabağ və ətraf yeddi rayona qayıtmasını özündə ehtiva edən sülh sazişinin yaxın zamanlarda imzalanacağına ümid ifadə edilib.

# Hərbi hissələrdə Novruz bayramı tədbirləri keçirilib

*2019-cu ilin fəaliyyət planına əsasən, Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissələrdə Novruz bayramı münasibətilə silsilə tədbirlər keçirilib. Bayram tədbirlərində əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Təntənəli mərasimlərdə çıxış edənlər xalqımız və dövlətimiz tərəfindən Novruz bayramına verilən yüksək qiymətdən, yazın gəlişinin bütün ölkəmizdə yüksək əhval ruhiyyə, coşqu, təntənə ilə qeyd edilməsindən, Novruz ənənələrinin tarixindən, eləcə də qorunaraq gələcək nəsillərə ötürülən bu milli-mənəvi dəyərlərin tərbiyəvi əhəmiyyətindən söhbət açıblar. Tonqal ətrafında keçirilən bayram şənliklərində konsert proqramları təqdim edilib, hərbçilər və qonaqlar üçün bayram süfrələri təşkil olunub.*





Müdafiə Nazirliyinin və Respublika Hərbi Prokurorluğunun 2019-cu ilə dair birgə fəaliyyət planına əsasən, hər iki qurumun məsul əməkdaşları Novruz bayramı ərəfəsində cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olublar.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, onlar birlik, birləşmə və hərbi hissələrdə müxtəlif kateqoriyalardan olan hərbi qulluqçular, o cümlədən bilavasitə ön xətdə yerləşən bölmələrin şəxsi heyəti ilə görüşlər keçiriblər.

Yerli icra strukturları, ictimaiyyət nümayəndələri, rayon fəalları, veteranlar və valideynlərin iştirakı ilə keçirilən tədbirlər şəxsi heyətə bayram sovqatlarının çatdırılması və konsert proqramları ilə yekunlaşıb.

* * *

Martın 19-da Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Novruz bayramı münasibətilə tədbir təşkil olunub.

Tədbirdə çıxış edənlər qədim tarixi köklərə malik olan Novruz bayramının ölkəmizdə yüksək səviyyədə qeyd edilməsindən, Novruz ənənələrinin dövlət səviyyəsində yaşadılmasından söhbət açıblar.

Çıxışlarda, həmçinin Azərbaycanda ordu quruculuğundan, Silahlı Qüvvələrin təkmilləşdirilməsi və maddi-texniki bazasının gücləndirilməsində ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindən danışılıb. Vurğulanıb ki, Ulu Öndərin ordu quruculuğu siyasəti bu gün Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Silahlı Qüvvələrə göstərilən xüsusi qayğının nəticəsidir ki, Azərbaycan Ordusu bu gün regionun ən güclü ordusuna çevrilib və cəbhə xəttində düşmənin bütün təxribat cəhdlərinin qarşısı qətiyyətlə alınır, ona layiqli cavab verilir.

Tədbirdə gənclərin vətənpərvər ruhda, ölkəmizə və dövlətimizə sədaqətli, cəmiyyətə yararlı vətəndaş kimi formalaşması və inkişaf etməsi istiqamətində həyata keçirilən tədbirlər də xüsusi qeyd edilib.

Çıxışlardan sonra rəngarəng bayram konserti təqdim olunub.

* * *

Abşeron rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Müdafiə Nazirliyinin rayon ərazisində yerləşən "N" hərbi hissəsində əsgərlər üçün Novruz şənliyi təşkil edilib. Tədbirdə hərbi hissənin şəxsi heyəti ilə yanaşı, rayon və hüquq-mühafizə orqanlarının rəhbərliyi, mədəniyyət və incəsənət ustaları iştirak ediblər.

Hərbi hissənin komandanlığı Abşeron rayon İcra Hakimiyyəti rəhbərliyinin bayram gününü əsgərlərlə birlikdə keçirməsini yüksək qiymətləndirərək ölkədə orduya böyük diqqət və qayğı göstərildiyini, əsgərlərimizin işğal altında olan torpaqları azad etməyə hər zaman hazır olduqlarını bildirib.

Rayon icra hakimiyyətinin başçısı İradə Gülməmmədova hərbi hissənin əsgər və zabit heyətini bayram münasibətilə təbrik edərək növbəti bayramların işğal altında olan torpaqlarımızda keçirilməsini arzulayıb. O, ölkəmizdə ordu quruculuğunda böyük nailiyyətlərin əldə olunduğunu qeyd edərək əsgərlərimizin düşmənə ağır zərbələr vuraraq bayrağımızı işğal altında olan torpaqlarımızda dalğalandırmağa qadir olduğunu bildirib.

İ.Gülməmmədova hərbi xidmətdə fərqlənən bir qrup əsgər və zabitə rayon icra hakimiyyətinin fəxri fərmanını və hədiyyələr təqdim edib.

Qonaqlar daha sonra hərbi hissənin yeməkxanasına baş çəkib, əsgərlərlə bir yerdə bayram süfrəsində yeməklərdən dadıblar.

Şənlikdə icra hakimiyyəti tərəfindən gətirilən bayram sovqatı əsgərlərə paylanılıb.

Tədbir rayon özfəaliyyət kollektivinin hazırladığı konsert proqramı ilə davam edib.

* * *

Novruz bayramı münasibətilə "Xabad-Or-Avner" yəhudi məktəbinin müəllim və şagirdləri Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsinin şəxsi heyətilə görüşdülər.

Tədbiri giriş sözü ilə açan hərbi hissənin zabiti 1-ci dərəcəli kapitan Natiq Bağırov qonaqları salamlayaraq, tədbir iştirakçılarını bayram münasibəti ilə təbrik etdi. Qeyd etdi ki, qədim tarixə malik Novruz bayramı hər il xalqımız tərəfindən böyük təntənə ilə qeyd edilir. "Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz insanlar arasında birliyin və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam bir təməl yaratmışdır. Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa və insana məhəbbət bayramıdır. Novruz xalqımızın mədəniyyətini, milli-mənəvi dəyərlərini özündə əks etdirən, dünyaya tanıtdıran qədim el bayramıdır. Xalqımızın yüksək zövqü və bədii təfəkkürü bu xalq bayramının el şənliklərində və rəngarəng əyləncələrində özünü aşkarlayır, onun mənəvi dünyasının təzahürünə, aynasına çevrilir. Azərbaycan xalqının mənəvi dünyasını, milli düşüncə tərzini, məfkurəsini, qədim mifik görüşlərini, folklorunu, milli varlığını Novruz qədər bütün zənginliyi ilə özündə ifadə edən ikinci bir bayram təsəvvür etmək çətindir. Novruz bütün türk dünyasına xas olsa da, Azərbaycanda daha möhtəşəm qeyd edilir. Sovet hakimiyyəti illərində Novruz bayramının keçirilməsinə sərt qadağalar qoyulsa da, xalqımız bu əziz bayramı həmişə qeyd etməyə can atmışdır. Azərbaycana rəhbərliyinin birinci dövründə xalqımızın ümummilli lideri Heydər Əliyev sovet hakimiyyətinin qadağalarına baxmayaraq, milli ruhun yüksəlişinə təkan verən amillərə xüsusi hörmətlə yanaşmışdır. Milli adət-ənənələrimizə, o cümlədən Novruz bayramına yüksək qiymət verən ulu öndər Heydər Əliyev bu bayram haqqında demişdir: "Novruz xalqımızın əsrlərdən bəri qoruyub saxladığı və bütün dövrlərdə həmişə əziz tutduğu bayramlardan biridir. Onun tarixi də Azərbaycan xalqının tarixi kimi keşməkeşli, enişli-yoxuşlu olmuşdur. Bu ulu bayramın müstəqil respublikamızda dövlət səviyyəsində qeyd edilməsi öz milli köklərimizə, adət-ənənələrimizə, tarixi keçmişimizə dərin ehtiram bəslədiyimizi və sarsılmaz tellərlə bağlı olduğumuzu nümayiş etdirir". Bir daha hər birinizi bu gözəl bayram münasibətilə təbrik edir, hər birinizə cansağlığı, ailə səadəti arzulayır və bizimlə görüşməyə gələn qonaqlarımıza çox sağ olun deyirəm".



"Xabad-Or-Avner" yəhudi məktəbinin direktoru Yefim Petroviç bildirdi ki, yəhudilər uzun əsrlərdir ki, Azərbaycanda yaşayırlar. "Yəhudi xalqından olan şəhidlərimiz, Milli qəhrəmanımız var. Azərbaycanda dilimizi, dinimizi saxlamaq üçün hər cür şərait var. Azərbaycan Konstitusiyası ilə təsbit olunmuş bütün haqlarımızdan ölkə vətəndaşı kimi tam istifadə edə bilirik. Azərbaycan Respublikasının Prezdenti cənab İlham Əliyev hər bir vətəndaşın prezidenti olduğunu deyir. Biz bunun əməldə icrasının tam mənası ilə şahidi oluruq. Biz də bütün sahələrdə fəaliyyətimizlə Prezidentimizə dəstək oluruq, onun daxili və xarici siyasətini bəyənirik. Bir sıra müsəlman ölkələrində xalq güllə yağışının altında yaşayır. Amma biz bu gün Azərbaycanda dinc şəkildə yaşayırıq. Bu sülh şəraitini təmin edən isə möhtərəm Prezidentimizdir. Hələ vaxtilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyib: "Yəhudilər Azərbaycanda tam əmin-amanlıq şəraitində yaşaya bilərlər".

Azərbaycan xalqı ilə uzun illər boyu elə qardaşlaşmışıq ki, bizi ayırmaq mümkün deyil deyərək məktəbin direktoru sözlərinə davam etdi:

\- Bundan sonra dünyanın harasında yaşasaq da, Vətənimiz Azərbaycandır. Azərbaycanda yəhudilərin sayı çoxdur. Yəhudilər Azərbaycanın bütün bölgələrində yaşayırlar. Biz dil açandan iki dili birlikdə öyrənirik. Yəhudilər rayon yerlərində əsasən Azərbaycan dilində təhsil alırlar. Danışıq dilini isə evdə öyrənirlər. Bakıda tədrisin rus dilində olduğu yəhudi təmayüllü orta məktəblər var. Həmin məktəblərdə Azərbaycanda təsdiq olunmuş proqramlar əsasında dərs keçirilir. Xüsusilə Azərbaycanda bizə məxsus olanları qoruyub saxlamaq üçün münbit şərait mövcuddur. Bizim icmanın sinaqoqu möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncamı ilə tikilib və 2011-ci ilin mart ayından fəaliyyətə başlayıb. Müsəlman dövlətində Prezidentin maliyyə vəsaiti ilə sinaqoq tikilməsi dünyada analoqu olmayan haldır. Yeni il bayramımız olan Roş-Ha-Şana, Yom-Kipur, Pesax, Sukkot, Şavuot və digər bayramlarımızla bərabər, Novruz bayramı da bizə doğmadır. Bir daha qarşıdan gələn Novruz bayramı münasibətilə hər birinizi səmimi qəlbdən təbrik edir, sizlərə uzun ömür və cansağlığı, Vətənin keşiyində mətinliklə dayanmağı arzulayırıq."

Tədbir "Xabad-Or-Avner" yəhudi məktəbinin şagirdlərinin şən nəğmələri və bir-birindən maraqlı rəqsləri ilə davam etdi.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Azərbaycan xalq eposlarında milli qəhrəmanlıq nümunələri ("Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanları əsasında).

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair tarixi və bədii ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirmək tövsiyə olunur.*

**Suallar:**

**1. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli qəhrəmanlıq abidəsidir.**

**2. Koroğlu Azərbaycan xalqının qəhrəmanıdır.**

*"Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli qəhrəmanlıq abidəsidir*

Erkən orta əsrlərdə (VI-XI əsrlər) Azərbaycanda baş verən ictimai-siyasi hadisələr öz bədii əksini şifahi və yazılı ədəbiyyatda tapmışdır. Həmin dövrdə şəhərlərdə və oturaq əhali arasında daha çox sehrli nağıllar və dini rəvayətlər yayıldığı halda, maldarlıqla məşğul olan əhali arasında aşıq yaradıcılığı inkişaf etmişdi. Köçərilər arasında ozanların böyük nüfuzu var idi. Onlar el-el, oymaq-oymaq gəzərək xalq qəhrəmanlarının adına dastanlar qoşur və onları təbliğ edirdilər. Ozanlar, eyni zamanda xalqın məsləhətçisi, bilicisi hesab olunurdular. Ən məşhur ozanları xalq hörmətlə "dədə" adlandırırdı.

Qədim oğuz türklərinin məişətini, etik-estetik düşüncələrini əks etdirən qəhrəmanlıq eposu bu günümüzə şifahi və yazılı şəkildə gəlib çatmışdır. Azərbaycan qəhrəmanlıq eposunun böyük abidələrindən olan, Azərbaycan ədəbiyyatı tarixində şifahi xalq yaradıcılığının ana dilində qələmə alınmış ilk ən böyük ədəbi abidəsi "Kitabi-Dədə Qorqud"dur. Bu gün elmə məlum olan "Kitabi-Dədə Qorqud" əlyazmalarının Drezden, Vatikan və Berlin kitabxanalarında saxlanılan nüsxələri məlumdur. Həmin əlyazmalarda oğuz bəylərinin bahadırlıq və cəngavərlik rəşadətlərini düzüb qoşan və milli yaddaşa verən Dədə Qorqudun peyğəmbərimiz Həz.Məhəmmədlə (s.a.v.) bir dövrdə yaşadığı göstərilir.

"Kitabi-Dədə Qorqud" dastanında türk etnik qrupuna daxil olan oğuzların qəbilə və tayfa münasibətləri dövrünün hadisələri, oğuz tayfalarının dövlətçilik və idarəçilik ənənələri, Vətən, torpaq uğrundakı vuruşları, sivil mədəniyyətə doğru tarixi inkişafı əks etdirilir.

Dastanda təsvir olunan hadisələr xanlar xanı Bayandır xanın başçılıq etdiyi, 24 sancağı (el, vilayət) birləşdirən Oğuz dövlətində cərəyan edir. Vahid tayfa dövləti olan Oğuz birliyində yaranmış daxili çarpışmalardan, tayfalararası ziddiyyətlərdən yaxın ərazilərdəki düşmən tayfalar istifadə etməyə çalışırdılar. Mərkəzi hakimiyyətə tabe olan sancaqların vahid dövlətçilik ənənələri yox idi. Bununla belə, Oğuz dövlətçiliyinin özünəməxsus idarəçilik qaydaları-nı, dövlətçilik modelini öyrənmək bu günümüz üçün də çox böyük əhəmiyyətə malikdir.

"Kitabi-Dədə Qorqud" Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsidir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanlarının hələlik XV-XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) tapılmışdır. "Oğuz tayfaları dilindən Dədəm Qorqud kitabı" adlanan Drezden nüsxəsi bir müqəddimə və 12 boydan, Vatikan nüsxəsi isə eyni müqəddimə və 6 boydan ibarətdir. Bu isə onu göstərir ki, hər iki nüsxə daha qədim bir nüsxədən köçürülmüşdür. "Kitabi-Dədə Qorqud"un bir sıra boyları 1815-ci ildə alman dilində, 1894-1904-cü illərdə rus dilində, 1916-cı ildə tam şəkildə Türkiyədə, 1939-cu ildə Bakıda, 1952-ci ildə İtaliyada, 1962-ci ildə isə Moskvada çap edilmişdir. Sonralar "Kitabi-Dədə Qorqud" ingilis, alman və fars dillərinə tərcümə edilmiş və İngiltərədə, ABŞ-da, İsveçrədə və İranda çapdan çıxmışdır.

Qafqazda olmuş alim və səyyahlar "Kitabi-Dədə Qorqud"dan dəfələrlə bəhs etmişlər. Adam Oleari adlı səyyah 1638-ci ildə Dərbənddə azərbaycanlılardan Dədə Qorqud hekayətlərini eşitdiyini, Qazan xanın arvadı Burla xatunun, eləcə də Dədə Qorqudun özünün burada qəbirləri olduğunu göstərmişdir. Evliya Çələbi isə "Səyahətnamə"sində Dərbənddə Dədə Qorqudun qəbri olduğunu və şirvanlıların bu qəbrə böyük ehtiram və etiqad bəslədiklərini qeyd etmişdir.

Azərbaycan xalq bədii təfəkkürünün abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanlarında xalq dilinin incəliklərindən, atalar sözlərindən, məsəllərindən məharətlə istifadə olunmuşdur. "Kitabi-Dədə Qorqud" Azərbaycan dilinin tarixini öyrənmək baxımından zəngin mənbədir.

"Kitabi-Dədə Qorqud" motivləri əsasında yazıçı Anar ssenari yazmış, 1975-ci ildə "Azərbaycanfilm" kinostudiyasında eyni adlı ikiseriyalı bədii film çəkilmişdir.

"Kitabi-Dədə Qorqud" dastanı XI-XII əsrlərdə və daha əvvəllər Azərbaycanda baş vermiş hadisələrlə səsləşir. Dastandakı hadisələrin əksəriyyəti Dəmirqapı Dərbənd, Bərdə, Göyçə gölü, Gəncə, Dərəşam, Əlincə, Qaradağ, Qaraçuq dağı və s. yerlərdə cərəyan edir. "Kitabi-Dədə Qorqud"da Dədə Qorqud bu dastanların yaradıcısı, həm də iştirakçısı kimi təqdim edilir. Bayat elindən çıxmış bu bilicinin Oğuzun müşkül məsələlərini həll edərək gələcəkdən xəbər verdiyi göstərilir. Azərbaycanda Dədə Qorqudun bütün əşyalara ad verməsi barədə rəvayət mövcuddur.

"Kitabi-Dədə Qorqud" boylarında da Dədə Qorqud şücaət göstərən igidlərə ad qoyur, çətin zamanlarda xalqın köməyinə gəlir, müdrik məsləhətləri ilə onlara yol göstərir.

"Kitabi-Dədə Qorqud" boyları müxtəlif hadisələrdən və ayrı-ayrı Oğuz igidlərinin qəhrəmanlığından bəhs etsə də, onlar bir-biri ilə bağlı olub vahid dastan təsiri bağışlayır. Dastanlarda Oğuzun yaşlı (Qazan xan, Dirsə xan, Qazılıq Qoca, Bəkil, Baybecan, Aruz, Qaragünə) və gənc (Beyrək, Uruz, Basat, Yeynək, Qarabudaq, Əmran, Səgrək, Buğac) nəslə mənsub qəhrəmanlarından söhbət açılır. Qəhrəmanlıq ruhu abidənin əsas qayəsini təşkil edir. Dastanlarda igidlər yalnız öz şücaəti ilə ad-san qazanırlar. Qəhrəmanlıq göstərməyən cavanlara ad verilmir.

"Kitabi-Dədə Qorqud"un qəhrəmanlıq ruhu Vətən məhəbbəti ilə ayrılmaz vəhdətdədir. Oğuz bəyləri doğma yurdlarını qorumaq naminə hər cür fədakarlığa hazır igidlərdir. Onların arasında məqsəd birliyi, ümumi mənafe uğrunda düşmənə qarşı birgə mübarizə ruhu hakimdir. Dastanlarda, eyni zamanda xəyanət, həsəd, qorxaqlıq, fərarilik və s. kimi mənfi sifətlər kəskin tənqid olunur.

Eposda Oğuz bəyləri ilə mübarizə aparan düşmən qəbilələri də təsvir edilir. Dastanlarda oğuzların düşmənə hücumları yalnız təcavüzkarlardan intiqam almaq məqsədi daşıyır. Qazan xan vuruş meydanında "qaçanı qovmur", "aman diləyəni öldürmür".

"Kitabi-Dədə Qorqud" yarandığı dövrün adət-ənənələri, köçəri həyat tərzi və s. haqqında tarixi-etnoqrafik məlumatlarla zəngindir. Burada etik davranış normaları, ailə-məişət məsələləri öz əksini tapmışdır: oğul ata sözünü iki eləmir, ağsaqqal qocaya, ağbirçək qarıya hörmətsizlik bağışlanılmaz günah sayılır, yoldaşını döyüş meydanında qoyub qaçanlar amansız cəzalandırılır və s.

"Kitabi-Dədə Qorqud" eposunun qəhrəmanlıq ruhu qadın obrazlarında və onların davranışlarında da aydın görünür. Dastanda təsvir edilən mərd, əyilməz qadınlardan Qazan xanın qadını Burla xatun igidlikdə ərindən geri qalmır, döyüş meydanında hünər göstərir. Başqa qadın obrazları da (Banuçiçək, Selcan xatun və b.) namuslu, tədbirli, təmkinli, ağıllı və dözümlüdürlər.

*Koroğlu Azərbaycan xalqının qəhrəmanıdır*

Azərbaycan xalqının "Kitabi-Dədə Qorqud"dan sonra yaranan ikinci böyük qəhrəmanlıq eposu "Koroğlu"dur. Dastanın qəhrəmanı Koroğlu tarixi şəxsiyyətdir. XVI əsrin sonu - XVII əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələr, Səfəvilər dövləti və Osmanlı imperiyası arasında müharibələr Azərbaycan xalqının maddi rifahının ağırlaşmasına və xalq kütlələrinin narazılıqlarına səbəb olurdu. XVI əsrin sonunda Şeyx Cəlalın başçılığı ilə Anadoluda vüsət alan kəndli hərəkatı XVII əsrin əvvəllərində Azərbaycana da yayıldı.

Müxtəlif tayfalar içərisindən çıxmış Cəlali dəstə başçılarından ən məşhuru Azərbaycan türkü Koroğlu idi. Salmas yaxınlığındakı Xaraba qala Koroğlu tərəfindən tikilmişdir. Dastanda Naxçıvan ərazisi, Salmas, Xoy Koroğlunun ən çox fəaliyyət göstərdiyi yerlərdəndir. Dastanın bir çox variantlarında Koroğlunun iqamətgahı olan Çənlibel qalasının Naxçıvanda və Makuda yerləşdiyi göstərilir. Koroğlu öz qəhrəmanlıqları ilə xalq kütlələrinin hədsiz məhəbbətini qazanmışdı. Koroğlunun dastana daxil olunmuş və şəxsi yaradıcılığına aid edilən qoşmalarından başqa, dastanın heç bir variantında əksini tapmayan şeirləri də tapılmışdır.

Tədqiqatçı alimlər tərəfindən Azərbaycan və Gürcüstan fondlarında saxlanılan naməlum müəlliflərin əlyazmalarında Koroğlunun ayrı-ayrı şeir və qoşmaları aşkar edilmişdir. Koroğlunun silahdaşlarından ayrı-ayrı dəstə başçıları - Dəli Həsən, Giziroğlu Mustafa bəy, Kosa Səfər, Tanrıtanımaz, Abaza paşa, habelə dastandakı mənfi personajların bir çoxu tarixdə yaşamış şəxslər hesab olunur. Bütün bunlar qəhrəman cəsarətini, xalq müdrikliyini, ədaləti özündə birləşdirən, nəğməkar, aşıq sənətinin bilicisi Koroğlunun real tarixi şəxsiyyət olduğunu deməyə əsas verir.

Azərbaycanda "Koroğlu" dastanının ilk nəşri 1913-cü ilə təsadüf edir. Bundan başqa dastanın 1927, 1929, 1941, 1949, 1956, 1975, 1983 və 1997-ci il nəşrləri də mövcuddur.

Azərbaycanın torpaqlarına olduğu kimi, mədəniyyətinə də iddialı olan ermənilər hətta "Koroğlu"nu da özününküləşdirmək kimi cəfəng xülyalarda olmuşlar. Tarixi bir faktdır ki, ötən əsrin 20-30-cu illərində Azərbaycanda fəaliyyət göstərən Tədqiq və Tətəbbə Cəmiyyəti xətti ilə aparılan ekspediyalar əsasında 1936-cı ildə eposun 20 qoldan ibarət yeni, daha mükəmməl nəşri çapa hazırlanmışdı. 1936-cı ilin dekabrında müstəntiq E.Qriqoryan tərəfindən həmin əlyazma Ermənistana, "mətndə ermənilərdən oğurlanmış qolları üzə çıxarmaq üçün" rəyə göndərilmişdi. Sonralar həmin qolların bir çoxu ermənilərin düzəlişləri ilə erməni mətbuatında "azərbaycanca və ermənicə çalıb-çağıran erməni aşıqlarından yazıya alınmış nümunələr" kimi nəşr edilmişdir. 1941-ci ildə isə İrəvanda "Koroğlu"nun erməni variantı üzə çıxıb. Bütün bunlar bizə bir daha erməni xislətinin iç üzünü açıb göstərir.

Xalqımızın qəhrəmanlıq ənənələrini əks etdirən xalq ədəbiyyatı nümunələri əsrlərdən keçərək bu gün bizə çatmış və milli-mədəni sərvətimizə çevrilmişdir. Ümummilli lider Heydər Əliyev bütün sahələrə olduğu kimi, tariximizə, mədəniyyətimizə də diqqət və qayğı göstərmişdir. Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, latın qrafikası ilə ilk növbədə kütləvi nəşr ediləcək Azərbaycan xalq ədəbiyyatı nümunələri arasında "Kitabi-Dədə Qorqud" eposunun 3 cilddə, "Koroğlu" dastanının 2 cilddə çapı nəzərdə tutulmuşdur.

Torpaqlarımızın 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyi bir zamanda Azərbaycan Ordusunda şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində, ümumiyyətlə gənclərin vətənpərvərlik tərbiyəsində "Kitabi-Dədə Qorqud" eposu və "Koroğlu" dastanı xalqımızın qəhrəmanlıq salnaməsinin dəyərli əsərləri kimi mühüm əhəmiyyətə malikdir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Hərbi qulluqçular Səməd Vurğunun ad gününü şairin doğma kəndində qeyd ediblər

*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, martın 21-i baharın ilk günü olmaqla yanaşı, həm də xalq şairi Səməd Vurğunun ad günüdür. Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusu Qazax rayonunun Yuxarı Salahlı kəndinə gedərək Səməd Vurğunun doğma kəndində şairin ad gününü qeyd ediblər.*



Əvvəlcə Səməd Vurğunun abidəsi ziyarət olunub, qarşısına əlvan qərənfillər düzülüb. Hərbi qulluqçuların nəzərinə çatdırılıb ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə şairin 70 illik yubileyi ərəfəsində 1975-ci ildə Bakıda Səməd Vurğunun ev muzeyi açılandan bir il sonra şairin doğma kəndi Yuxarı Salahlıda həmin muzeyin filialı - Səməd Vurğun Poeziya evi açılıb. Yerli monumental və xatirə abidələri siyahısına daxil edilmiş bu filialda Səməd Vurğunun həyat və yaradıcılığına dair xeyli eksponat nümayiş olunur. Hər il buranı yüzlərlə adam ziyarət edir. Poeziya evində silsilə tədbirlər həyata keçirilir. Poeziya evinin direktoru Mətanət Rəhimova əməkdaşları ilə birlikdə hərbi qulluqçuları bayram xonçası və səməni ilə qarşılayıb. Bələdçi Ziba Məmmədova bir-birindən maraqlı fotolar, sənədlər, xatirə əşyaları barədə hərbi qulluqçulara ətraflı məlumat verib, döyüşçülərin suallarını cavablandırıb.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Müdafiə Nazirliyinin əməkdaşı polkovnik Abdulla Qurbani Səməd Vurğun yaradıcılığında vətənpərvərlik mövzusu ilə bağlı geniş söhbət açıb. Böyük Vətən müharibəsinin ilk günlərindən böyük şairin "Bilsin ana torpaq, eşitsin Vətən, Müsəlləh əsgərəm mən də bu gündən" deyərək qələmini süngüyə çevirdiyini, xalqı və döyüşçüləri qələbəyə ruhlandırdığını, dəfələrlə cəbhəyə gedərək Azərbaycan əsgərinə ürək-dirək verdiyini vurğulayıb. "Ananın öyüdü", "Partizan Babaş", "Mənə belə söylədilər", "Göz aydınlığı" və digər şeirlər döyüşçülər tərəfindən həyəcanla dinlənilib.



Zabit Vüqar Alacov qeyd edib ki, Səməd Vurğun poeziyası bu gün də aktualdır və ordu gənclərinin döyüş ruhunun, vətənpərvərlik hissinin daha da yüksəldilməsi işində kəsərli silahımızdır. Azərbaycan əsgəri Səməd Vurğun şeirlərini sevir və onu həvəslə oxuyur. Hərbi qulluqçular şairin məşhur Azərbaycan şeirinin "El bilir ki, sən mənimsən" misrası ilə başlayan bəndini birlikdə söyləyərək azərbaycanlı olmaları ilə fəxr etdiklərini, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək uğrunda Ali Baş Komandanın əmrinə hər an hazır olduqlarını bəyan ediblər.

Ulu öndər Heydər Əliyevin səsləndirilən "Əziz şairimiz, sənin canın qədər sevdiyin Azərbaycan bu gün müstəqil dövlətdir. Sənin canın qədər sevdiyin xalqın bu gün azaddır" kəlamları alqışlarla qarşılanıb. Səməd Vurğun Poeziya evinə Müdafiə Nazirliyinin adından vətənpərvərlik mövzusunda kitablar hədiyyə edilib, fəxri qonaqlar kitabına rəy yazılıb. Səməd Vurğun Poeziya evindən xoş təəssüratlarla ayrılan hərbi qulluqçular gün ərzində Qazax rayonunda Səməd Vurğunun adı ilə bağlı yerlərdə olub, şairin abidələri qarşısında şəkil çəkdiriblər.

# Hərb tariximizi öyrənirik!

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində olduğumuz zaman bölmələrin birində müasir avadanlıqlarla təmin olunmuş sinif otağı diqqətimizi çəkdi. İdeoloji otaqda Azərbaycan dövlətinin rəmzləri, tarixi, Azərbaycan Ordusunun inkişaf tarixinin mərhələləri, hərbi hissənin yaranma tarixi, Hərbi and, xalqımızın ümummilli lideri Heydər Əliyevin portreti, dövlət və ordu quruculuğu sahəsindəki fəaliyyəti, Ali Baş Komandanın və Müdafiə nazirinin əsgərlərlə görüşlərini əks etdirən foto-stendlər göz oxşayırdı. Həmçinin aprel döyüşləri qəhrəmanlarının və torpaqlarımızın bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan hərbi qulluqçuların foto-guşələri bölmədə ideoloji, təbliğat və təşviqat işinin yüksək səviyyədə aparıldığını göstərirdi. Bunların hamısı əsgərlərin mənəvi-psixoloji hazırlığının artırılması, vətənpərlik hissinin və döyüş ruhunun aşılanmasında mühüm rol oynayır.

Leytenant Şamil Qəhrəmanla görüşürəm. Zabit şəxsi heyətə ictimai-siyasi hazırlıq dərslərinin vaxtı-vaxtında keçirildiyini dedi. "Şəxsi heyətin yüksək döyüş hazırlıqlı, milli-mənəvi dəyərlərə sadiq, nizam-intizamlı, qorxmaz, cəsur, düşmənə nifrət, komandirlərinə inam kimi müsbət keyfiyyətlərə sahib əsgərlər kimi formalaşmasında ictimai-siyasi hazırlıq dərslərinin önəmi böyükdür".

Bakı Dövlət Universitetinin məzunu olan gənc zabit ictimai-siyasi hazırlıq məşğələsinin rəhbərlik tərəfindən təsdiq edilmiş mövzular ətrafında təşkil olunduğunu dedi. Öyrənirik ki, bugünkü dərsləri "IX əsrdə Azərbaycanda xalq azadlıq hərəkatı. Babək Xürrəminin başçılığı ilə ərəb işğalçılarına qarşı mübarizə" mövzusuna həsr olunub. Onun nəticəsidir ki, şəxsi heyət tarixi məlumatları öyrənərək zəngin bilgilər əldə edir. Eyni zamanda əsgərlərimiz Vətənə, tarixi köklərimizə, zəngin mədəniyyətimizə və milli irsimizə bağlıdırlar, ulu babalarımızın igidlik və rəşadət rəmzini özlərinə örnək bilirlər. Gənc zabit qısa söhbətdən sonra günün mövzusu haqqında şəxsi heyətə geniş məlumat verdi.



- Azərbaycanda azadlıq mübarizəsinin parlaq səhifələrindən biri ərəb xilafətinə qarşı xürrəmilər hərəkatıdır. Xürrəmilərin şüarı torpağı və digər istehsal vasitələrini xalqın ixtiyarına verməkdən, kəndliləri və sənətkarları feodalların və digər hakim təbəqələrin asılılığından azad etməkdən ibarət idi. Əsrlərdən bəri adı qəhrəmanlıq rəmzinə çevrilmiş Babək öz zəmanəsinin cəsur sərkərdəsi və görkəmli siyasi xadimi idi. Təcrübəli sərkərdə olan Babək hər zaman ağıllı taktika ilə düşmənin planlarını pozur və onları çıxılmaz vəziyyətə salırdı. Sonuncu və bütün günü davam edən Bəzz döyüşündə isə xürrəmilər misilsiz rəşadət göstərirdilər. Onların qeyri-adi mətanəti və igidliyi ərəbləri heyrətə gətirirdi. Vətənin cəngavər oğulları müqəddəs torpağımız uğrunda şəhid olmağı şərəf sayırdılar. Bəzz döyüşü orta əsr müharibələri tarixində ən çox insan qırğınına səbəb olan döyüşlərdəndir. Mübarizədə xalqın imtiyazlı təbəqəsinin dönüklüyü, ərəblərə nisbətən daha cəsur və döyüşkən türk sərkərdələrinin eyni və digər mənşəli üsyançılara qarşı səfərbərliyə alınması, ən başlıcası ermənilərin xəyanəti və ərəblərə köməklik etməsi azadlıq mühəribəsinin məğlubiyyətlə nəticələnməsinə səbəb oldu. Ağır məğlubiyyətə baxmayaraq, xürrəmilər hərəkatı digər asıllı xalqların azadlıq mübarizəsinə təkan verməklə yanaşı, Azərbaycanda xalqın şüurunda və əməlində əsrlərlə yaşadı.

Xürrəmilər hərəkatından əsrlər keçməsinə baxmayaraq elə bil yenə də tarix təkrarlanır. Bu gün də torpaqlarımız işğala məruz qalıb. Azərbaycan torpaqlarının bir hissəsi hələ də ermənilərin işğalı altındadır. Ona görə də bu gün Azərbaycan Ordusunun qarşısında duran ən başlıca vəzifə, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün həmişə döyüşə hazır olmaqdır. Azərbaycan Ordusunun hərbi qulluqçusu dərslərdə və təlimlərdə hərb işini vicdanla öyrənməklə yanaşı, öz xalqının qəhrəmanlıq tarixini də bilməli, onunla fəxr etməli və Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə babalarının şərəfli döyüş ənənələrinə yüksək sədaqət nümunəsi göstərməyə hazır olmalıdır."

Dərs bitdikdən sonra əsgərlərlə söhbətləşib, onların mövzu ilə bağlı fikirlərini öyrəndim.

- Komandirlərimizin rəhbərliyi altında keçirilən ictimai-siyasi hazırlıq məşğələsi sayəsində hərb tariximiz haqqında geniş məlumatlar əldə edir, mədəni irsimizi öyrənir, işğal altında olan torpaqlarımızdakı tarixi abidələrimiz haqqında geniş informasiya toplayırıq. Hamımız yaxşı bilirik ki, işğalçılar abidələrimizə, tariximizə, mədəniyyətimizə necə divan tuturlar. Bu abidələri yer üzündən silməklə, keçmişimizi, yaddaşımızı silməyə çalışırlar. Yalnız buna nail ola bilməyəcəklər. Tezliklə Ali Baş Komandanımızın əmri ilə işğal altında olan torpaqlarımızı azad edib, düşmənlərimizdən qisasımızı alacağıq, - bu sözləri əsgər Hümmət Qafarov dedi.

Əsgərlər Fəqan Nəcəfov, Məqsəd Nəbiyev, Məhəmməd İmanov, Nurlan Mahmudov, Elşad Əliyev və digərləri keçirilən ictimai-siyasi hazırlıq məşğələsinin əhəmiyyətindən, tezliklə döyüşə atılıb, tarixi torpaqlarımızı düşməndən azad edəcəkləri günün həsrətilə xidmət etdiklərindən danışdılar.

Hərbi hissədə günün nizam qaydasına uyğun olaraq keçirilən ictimai-siyasi hazırlıq dərsləri Azərbaycan əsgərinin həm döyüş ruhuna, həm də mənəvi-psixoloji hazırlığına müsbət təsir edir, gəncləri mənəvi dəyərlərə sədaqətli, Vətən sevgisinin, düşmənə nifrət hissinin nə olduğunu dərk edən, qorxmaz və cəsur əsgərlər kimi formalaşdırır.

**Baş leytenant,**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Rəşad ƏMRAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Ombudsman aparatının nümayəndələri HDQ-də olublar

*Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (OMBUDSMAN) birgə tədbirlər planına əsasən, Ombudsman aparatının nümayəndələri Hərbi Dəniz Qüvvələrinin hərbi hissələrində olublar.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi qulluqçuların hüquqlarının müdafiəsi sektorunun müdiri Fəzail Həsənov və sektor müdiri Vüqar Heydərov matrosların sosial-məişət şəraiti ilə tanış olaraq yataqxanalara, yeməkxanalara baxış keçirib, ərzaqların saxlanma anbarlarına baş çəkiblər.

Görüşlər zamanı Ombudsman aparatının üzvləri hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı mühazirələr oxuyub və hərbi dənizçiləri maraqlandıran sualları cavablandırıblar.



# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbçiləri arasında silah-sursatın və hərbi əmlakın oğurlanması, satılması ilə bağlı açılan cinayət işlərinin sayı çoxalmaqda davam edir.

Beşinci dağatıcı alayın mühəndis-istehkam bölməsində xidmət edən hərbi qulluqçu Karen Sarkisyan oğurladığı partlayıcı maddəni, hərbi əşya-əmlakını və ərzağı satarkən tutulub.

Hərbi qulluqçu K.Sarkisyan balıqçılara satdığı partlayıcı maddənin pulunа bölmənin bəzi məsrəflərini ödədiyini deyib.

Bu işdə daha kimlərin əli olduğunu müəyyən etmək məqsədilə faktla bağlı araşdırma davam edir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbçiləri arasında xidmətdən yayınmaq məqsədilə hərbi hissəni özbaşına tərk edənlərin sayı azalmır. Hərbi hissədən qaçanların əksəriyyəti izahatlarında fərarilik etmələrinin səbəbi kimi, şəraitin acınacaqlı olduğunu göstərirlər.

Ağdam istiqamətində yerləşən düşmən ordusunun birinci taborunda xidmət edən Vahan Aleksanyan da hərbi hissədə mövcud olan vəziyyətə tab gətirməyərək bölmədən özbaşına qaçıb.

Onun tapılması və xidmət yerinə qaytarılması ilə bağlı tədbirlər görülür. Hərbi polis araşdırma aparır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# “Ordumuzun gələcək zabitlərinin əhatəsində elə xoşbəxtəm ki!”

Bu günlərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə həm nəsr, həm də nəzm əsərləri ilə oxucuların rəğbətini qazanmış onlarla maraqlı kitabın müəllifi yazıçı, şair və publisist Gülzar İbrahimova ilə görüş keçirildi. Görüşü hərbi təhsil ocağında fəaliyyət göstərən bədii qiraət - natiqlər dərnəyinin rəhbəri Naibə Şəmşiyeva açaraq iştirakçıları və qonaqları salamladı.



Kursantlarla görüşə gəlmiş Gülzar İbrahimovanı tədbir iştirakçılarına təqdim etdi.

Kursant Tapdıq Mansurov yazıçının həyat yolu və yaradıcılığı barədə geniş məlumat verdi. Onun kitablarından geniş söz açdı, oxuduğu əsərlərinin adını çəkdi.

Sonra bədii qiraət - natiqlər dərnəyinin üzvləri olan kursantlardan Cəlil Məmmədzadə, Əli Mirzəyev, Seyfəddin Orucov, Vüsal Mövsümlü, Əli Süleymanzadə və başqaları Gülzar İbrahimovanın şeir və hekayələrini səsləndirdilər. Onun qələmə aldığı maraqlı, yaddaqalan nümunələri görüş iştirakçılarının diqqətinə çatdırdılar.

Böyük həvəslə, yüksək ovqatla kursantlarla görüşə gələn Gülzar İbrahimova da çıxış etdi:

- Hörmətli kursantlar, ordumuzun gələcək zabitlərinin əhatəsində elə xoşbəxtəm ki! Fərəhləndim, qürur hissi keçirdim. Əmin oldum ki, siz burada gündəlik dərslərinizi oxumaqla yanaşı, həm də bədii əsərlər mütaliə edirsiniz. Həm müasir, həm də klassik ədəbiyyatımız haqqında kifayət qədər bilikləriniz var. Bütün bunlar isə sizin dünyagörüşünüzün formalaşmasına müsbət təsir göstərir. Mənim əsərlərimi də mütaliə etməyiniz, tədbirdə səsləndirməyiniz ovqatıma ovqat qatdı. Bir anlıq da olsa yeniyetməliyimi, gəncliyimi, heç vaxt unudulmayan məktəb illərini xatırladım. Sanki xəyalların qanadında keçmişə qayıtdım. Sizin çıxışlarınızı, ifa etdiyiniz şeirləri diqqətlə dinlədim. Səsləndirdiyiniz dəyərli fikirləri bəyəndim. Bu fikirlər yaradıcılığıma sanki bir təkan verəcək. Sizin aranızda mənalı şeirlər yazanlar da var. Mən bir neçə kursantın şeirlərini müxtəlif qəzetlərdə dərc etdirib bu gün onlara hədiyyə gətirmişəm. Əgər bu yaşınızdan belə yazmağa başlamısınızsa, gələcək həyatınız parlaq olacaq. Yaradıcılığıma belə diqqətlə yanaşdığınıza görə hamınıza minnətdarlığımı bildirirəm. Siz bizim gündən-günə güclənən, qüdrətini artıran ordumuzun gələcək zabitləri olacaqsınız. Sizə uğurlar arzulayıram. Arzu edirəm ki, həmişə təhsilinizdə və xidmətinizdə nailiyyətlər qazanasınız. Ümid edirəm ki, sizinlə görüşlərimiz davamlı olacaq. Bu görüş sonuncu deyil, başlanğıcdır.

Polkovnik-leytenant Ceyran Abbasova çıxış edərək kursantlarla görüşə gəldiyinə və əsərləri ilə onların hərbi vətənpərvərlik ruhunu artırdığına görə yazıçı, şair və publisist Gülzar İbrahimovaya minnətdarlığını bildirdi.

Mayor Natiq Rəhimov kursantların hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasına müsbət təsir göstərən əsərlər yazdığına və onlarla görüşə gəldiyinə görə Gülzar İbrahimovaya C.Naxçıvanski adına Hərbi Liseyin rəisi general-mayor Bəkir Orucovun adından fəxri fərman təqdim etdi.

Yazıçı Gülzar İbrahimova poeziyaya həvəs göstərən kursantlardan bir neçəsinə "Qızıl açar" diplomu təqdim edərək onlara yaradıcılıqlarında uğurlar arzuladı.

Kursantlar yazıçı ilə xatirə şəkli çəkdirdilər. Tədbirin sonunda kursant Fərhad Şıxıyev səliqə ilə əlində saxladığı üçrəngli bayrağı kursantlar adından Gülzar İbrahimovaya hədiyyə etdi. Maraqlı anları ilə uzun müddət yaddaşlarda yaşayacaq tədbir xoş ovqatla başa çatdı.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# İdman

## Kikboksçumuz Almaniyada qələbə qazanıb



Azərbaycan Kikboksinq Federasiyasının üzvü, dünya çempionu Xəyal Əhmədov Almaniyanın Bohum şəhərində keçirilmiş nüfuzlu beynəlxalq turnirdə növbəti dəfə parlaq qələbə qazanaraq dünya kəmərinə (WFMC) sahib olub.

Qarışıq döyüş növləri (MMA) və K-1 versiyaları üzrə keçirilən beynəlxalq turnirdə X.Əhmədov Almaniya kikboksçu, məşhur "Nubia Sports" klubunun yetirməsi Kevin Herşlaqla qarşılaşıb. Azərbaycanı təmsil edən "Tank" ləqəbli kikboksçumuz 5 raundluq döyüşdə rəqibi üzərində inamlı qələbə qazanaraq Azərbaycan bayrağını qaldırıb.

İdmançımız ötən il keçirilmiş turnirdə də məhz almaniyalı kikboksçu üzərində qələbə qazanmışdı.

## Azərbaycan komandası Xüsusi Yay Olimpiya Oyunlarında möhtəşəm qələbə qazanıb



Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən Xüsusi Yay Olimpiya Oyunlarında Azərbaycan komandası möhtəşəm qələbəyə imza atıb.

54 idmançı ilə təmsil olunan Azərbaycan yığması 24 (6 qızıl, 10 gümüş, 8 bürünc) medal qazanıb.

Qeyd edək ki, idmançılarımız atletika, pauerliftinq, cüdo, stolüstü tennis, badminton, futbol, həndbol, basketbol, voleybol və üzgüçülük idman növlərində mübarizə aparıblar.

## Pauerliftinq üzrə açıq Azərbaycan çempionatına yekun vurulub



"Zirvə" idman kompleksində keçirilən pauerliftinq üzrə açıq Azərbaycan çempionatına yekun vurulub.

Çempionatda 15 rayonu təmsil edən 20 klubun həyətində 150-yə yaxın idmançı 12 çəki dərəcəsində mübarizə aparıb. Turnirdə Azərbaycan idmançıları ilə yanaşı, İran təmsilçiləri də mübarizəyə qoşulublar.

Turnirin yekun nəticələrinə görə, Əhəd Zəbiyev (52 kq), Nuru Şahverdiyev (56 kq), Elmir Tarverdiyev (60 kq), Elvin Müzəffərov (67,5 kq), Rövşən Xəlilov (75 kq), Nihat Quliyev (82.5 kq), Kamran Lazımov (90 kq), Ramil Əhmədov (100 kq), Elmin Niftəliyev (110 kq), Razim Hüseynov (125 kq), Teymur Əhədov (140 kq), Fuad Süleymanov (+140 kq) birinci yeri tutublar.

Qaliblər federasiya tərəfindən diplom və medallarla təltif olunub.

## Azərbaycan döyüşçüsü nüfuzlu “M-1 Challenge 101” turnirində çıxış edəcək

Martın 30-da Qazaxıstanda qarışıq döyüş növləri (MMA) üzrə nüfuzlu "M-1 Challenge 101" turniri keçiriləcək.

Azərbaycan MMA Federasiyasından bildiriblər ki, ölkəmizi yarışda dünya və Avropa çempionu, dünya kuboku yarışlarının qalibi Zaur Hacıbabayev təmsil edəcək. Turnirdə 93 kiloqram çəki dərəcəsində çıxış edəcək "Baku Fighters" klubunun təmsilçisi ABŞ idmançısı Tanner Boserlə üzüzə gələcək.

Yarış dünyanın 20 ölkəsində canlı yayımlanacaq.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 256
Nüsxə 3950